**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:

__________dos. Zaur Məmmədov
"____" ______ 2025-ci il

# Fənn sillabusu

**İxtisas:** "6008008-Turizm işinin təşkili"
**Fakultə:** "İqtisadiyyat və idarəetmə"
**Kafedra:** "İqtisadiyyat və innovativ idarəetmə"
**1.Fənn haqqında məlumat:**
**Fənnin adı:** "Makroiqtisadiyyat"
**I.Fənn haqqında məlumat:**
Kodu: İPF-B 08
**Tədris ili:** II (2023-2024). Semestr: IV
**Tədris yükü cəmi**: 50 saat Auditoriya yükü 14 saat - (10 saat mühazirə, 4 saat seminar)
**Təhsilalma forması:** Qiyabi
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 5 kredit
**II.Müəllim haqqında məlumat:**
**Adı, soyadı, elmi dərəcəsi:** *baş müəllim Şahbazova Lalə Əbdülrəhim qızı*
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Füzuli küç., 170-a
**Məsləhət saatı**: I-V günlər: saat $10^{00}$-$12^{00}$
**E-mail ünvanı**: *lale.shahbazovaa@gmail.com*
**III.Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**
**Əsas**
- N.Q.Menkyu. "Ekonomiksin prinsipləri" .Dərslik. Bakı, 2009
- O.Blanşard. "Makroiqtisadiyyat". Dərslik. Bakı, 2019
- Paul Crugman & Robin Wells "Makro Ekonomi" Palme yayınları. 2015
- "İqtisadi nəzəriyyə: Makroiqtisadiyyat 1,2". Q.V.Plexanov adına Rusiya İqtisad Akademiyası. Dərslik. Bakı, 2009

**Əlavə**
- M.X.Meybullayev ."Makroiqtisadiyyata giriş". Dərslik, Bakı, 2011
- A.V.Sidoroviç və b. "İqtisadi nəzəriyyə kursu". Dərslik. M.V.Lomonosov adına Moskva Dövlət Universiteti. Dərslik. Bakı, 2012

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün ilkin olaraq "İqtisadiyyata giriş" və "Mikroiqtisadiyyat" fənlərinin tədrisi zəruridir.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda "Ekonometrika" və "Statistika" fənlərinin tədris olunması zəruridir.

**VI. Fənnin təsviri və məqsədi:** Fənn makroiqtisadiyyatın əsas prinsiplərini əhatə etməklə, milli gəlirin ölçülməsi, yaşayış minimumunun hesablanması, iqtisadi artım, maliyyə sistemi, məşğulluq və işsizlik, monetar sistem və inflyasiya, açıq iqtisadiyyat, məcmu tələbə və təklif, makroiqtsiadi siyasət kimi mövzuları özündə birləşdirir. Fənnin məqsədi tələbələrdə makro iqtisadiyyatın təməl biliklərini formalaşdırmaqdır. Bu kursda makroiqtisadi

CamScanner ilə skan edilib

göstəricilərdən başlayaraq real iqtisadiyyat, pul və qiymətlər, makroiqtisadi siyasət və açıq iqtisadiyyatın makroiqtisadi təhlilinə qədər bir çox mövzular üzrə təməl biliklər verilməsi nəzərdə tutulmuşdur.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır və onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar, məşğələ və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

Qiymətləndirmə meyarları aşağıdakılardan ibarətdir:

- 10 bal - tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal - tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal - tələbənin cavabı əsasən düzgündür.
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var.
- 0 bal - suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** *Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozduqda mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.*

**X. Təqvim planı**: *Mühazirə 10 saat,*

| N | Keçirilən mühazirə mövzularının məzmunu | Mühazirə | |
|---|---|---|---|
| | | Saat | Tarix |

CamScanner ilə skan edilib

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 1. | **Mövzu 1. Makroiqtisadiyyata giriş. Milli hesablar sistemi, İqtisadi fəaliyyətin nəticələrinin ölçülməsi. Milli hesablar sistemi ilə bağlı əlavə anlayışlar**<br>***Plan:***<br>1. Makroiqtisadiyyatın tədqiqat obyekti<br>2. Makroiqtisadiyyatın metodologiyası<br>3. Milli hesablar sistemi və onun strukturu<br>4. Ümumi Daxili Məhsul (ÜDM) və Ümumi Milli Məhsulun (ÜMM) hesablanması<br>5. İctimai məhsulun ölçülməsi üçün istifadə edilən digər makroiqtisadi göstəricilər və onların hesablanması<br>6. Makroiqtisadi göstəricilərin dəqiqliyi problemi<br>7. Real və nominal ÜDM<br>8. İqtisadi artım və iqtisadi inkişaf, İqtisadi artımın əsas göstəriciləri | 2 | |
| 2. | **Mövzu 2. Makroiqtisadi qeyri-sabitlik və inflyasiya. Makroiqtisadi qeyri-sabitlik və işsizlik. Məşğulluq və milli gəlir arasındakı əlaqə. Klassik və keynsçi tarazlıq nəzəriyyəsi**<br>***Plan:***<br>1. İnflyasiya və onun növləri. İnflyasiyanın şərtləri və səbəbləri<br>2. İnflyasiyanın ölçülməsi. Əsas qiymət indeksləri və ÜDM deflyatoru<br>3. İnflyasiyanın sosial-iqtisadi nəticələri. Antiinflyasiya siyasəti<br>4. Məşğulluq anlayışı. İşsizliyin növləri və səbəbləri<br>5. İşsizliyin göstəriciləri. Təbii işsizlik səviyyəsi<br>6. Ouken qanunu. ÜDM və işsizlik arasındakı əlaqə<br>7. İşsizliyin sosial-iqtisadi nəticələri. Məşğulluq siyasəti<br>8. Klassik iqtisadi yanaşmalar<br>9. Keynsçi iqtisadi yanaşmalar | 2 | |
| 3. | **Mövzu 3. İstehlak, yığım və investisiyalar. Dövlətin büdcə - vergi (fiskal) siyasəti**<br>***Plan:***<br>1. İstehlak və istehlak funksiyası<br>2. Yığım və yığım funksiyası<br>3. İnvestisiyalar, onların növləri və funksiyaları<br>4. Dövlət büdcəsi və onun quruluşu<br>5. Fiskal siyasətin məqsədləri və əsas alətləri<br>6. Büdcə kəsiri, səbəbləri və aradan qaldırılma üsulları<br>7. Dövlət borcu və onun idarə olunması | 2 | |
| 4. | **Mövzu 4. Açıq iqtisadiyyat. Xarici iqtisadi əlaqələr və milli gəlir. Pul və pul təklifi**<br>***Plan:***<br>1. Açıq iqtisadiyyatın mahiyyəti və onun açıqlılığının meyarları<br>2. İstehsal amillərinin beynəlxalq hərəkətinin makroiqtisadi təsirləri<br>3. Tədiyə balansı və onun quruluşu<br>4. Xarici ticarət və milli gəlir arasındakı əlaqə | 2 | |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| | 5. Valyuta bazarı və valyuta məzənnəsi<br>6. Valyuta siyasəti və valyuta rejimi<br>7. Pul, onun funksiyaları və pul kütləsi<br>8. Pul aqreqatları və likvidlik<br>9. Pul multiplikatoru. Pul təklifi ilə bağlı yanaşmalar | | |
| 5 | **Mövzu 5. Pul tələbi. Dövlətin pul-kredit (monetar) siyasəti. Milli gəlirin real və monetar tarazlığı: IS-LM modeli. Toplam tələb və toplam təklif**<br>***Plan:***<br>1. Pul tələbi və ona təsir edən amillər<br>2. Pulun miqdar nəzəriyyəsi, Fişer və Kembric tənliyi. Likvidlik tələsi<br>3. Müasir bank sistemi: Mərkəzi Bank və kommersiya bankları<br>4. Mərkəzi Bankın pul-kredit (monetar) siyasəti, onun məqsədləri və alətləri<br>5. Əmtəə bazarında tarazlıq və IS əyrisi<br>6. Pul bazarında tarazlıq və LM əyrisi<br>7. Toplam tələb əyrisinin sürüşməsi və meylliliyinin dəyişməsi<br>8. Toplam təklif əyrisinin sürüşməsi və meylliliyinin dəyişməsi<br>**9.** Ümumi makroiqtisadi tarazlıq | 2 | |
| | **Cəmi:** | **10** | |

**XI. Fənn üzrə tələblər:** bu fənni bitirən tələbələr sonda əmtəə və xidmət buraxılışı miqdarının artımı (Milli Gəlir), işsizlik (məşğulluq), inflyasiya, istehlak və investisiya, pul-kredit sistemi, büdcə-vergi sistemi, xarici iqtisadi əlaqələr, iqtisadi sabitlik və böhran, iqtisadi siyasət və s. barədə nəzəri və praktiki bilik və bacarıqlara yiyələnməlidir.

**XII. Fənn üzrə təlimin nəticələri:**

- Tələbə əsas iqtisadi anlayışları və iqtisadiyyatın metodlarını başa düşür.
- Bu iqtisadi anlayışlardan ve ibtidai iqtisadi modellərdən istifadə edərək bazar iştirakçılarının (istehlakçı va şirkətlərin) davranışlarını təhlil edir.
- İstehsal nəzəriyyəsi və bazarın prinsiplərini şərh edir.
- İqtisadi yanaşmaları müxtəlif problemlərə tətbiq etməyi bacarır.
- Dövlətin bazar iqtisadiyyatı kontekstinda tənzimləyici rolunu ve funksiyalarını izah edir.
- Dövlət tərəfindən qəbul olunmuş siyasətləri iqtisadi nöqteyi-nəzərdən izah və təhlil edir.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV: Kollekvium sualları:**

1. Ümumi Daxili Məhsul (ÜDM) və Ümumi Milli Məhsulun (ÜMM) hesablanması
2. İctimai məhsulun ölçülməsi üçün istifadə edilən digər makroiqtisadi göstəricilər və onların hesablanması
3. İnflyasiya və onun növləri. İnflyasiyanın şərtləri və səbəbləri
4. İnflyasiyanın ölçülməsi. Əsas qiymət indeksləri və ÜDM deflyatoru
5. Məşğulluq anlayışı. İşsizliyin növləri və səbəbləri
6. İstehlak və istehlak funksiyası
7. Dövlət büdcəsi və onun quruluşu
8. Valyuta siyasəti və valyuta rejimi
9. Pul tələbi və ona təsir edən amillər
10. Mərkəzi Bankın pul-kredit (monetar) siyasəti, onun məqsədləri və alətləri

CamScanner ilə skan edilib

**XV. İmtahan sualları: (Nəzəri suallar)**

1. Makroiqtisadiyyatın tədqiqat obyekti
2. Makroiqtisadiyyatın metodologiyası
3. Ümumi Daxili Məhsul (ÜDM) və Ümumi Milli Məhsulun (ÜMM) hesablanması
4. İctimai məhsulun ölçülməsi üçün istifadə edilən digər makroiqtisadi göstəricilər və onların hesablanması
5. Makroiqtisadi göstəricilərin dəqiqliyi problemi
6. Real və nominal ÜDM
7. İqtisadi artım və iqtisadi inkişaf, İqtisadi artımın əsas göstəriciləri
8. İnflyasiya və onun növləri. İnflyasiyanın şərtləri və səbəbləri
9. İnflyasiyanın ölçülməsi. Əsas qiymət indeksləri və ÜDM deflyatoru
10. İnflyasiyanın sosial-iqtisadi nəticələri. Antiinflyasiya siyasəti
11. Məşğulluq anlayışı. İşsizliyin növləri və səbəbləri
12. İşsizliyin göstəriciləri. Təbii işsizlik səviyyəsi
13. Ouken qanunu. ÜDM və işsizlik arasındakı əlaqə
14. Klassik iqtisadi yanaşmalar
15. Keynsçi iqtisadi yanaşmalar
16. İstehlak və istehlak funksiyası
17. Yığım və yığım funksiyası
18. İnvestisiyalar, onların növləri və funksiyaları
19. Dövlət büdcəsi və onun quruluşu
20. Fiskal siyasətin məqsədləri və əsas alətləri
21. Büdcə kəsiri, səbəbləri və aradan qaldırılma üsulları
22. Açıq iqtisadiyyatın mahiyyəti və onun açıqlılığının meyarları
23. İstehsal amillərinin beynəlxalq hərəkətinin makroiqtisadi təsirləri
24. Tədiyə balansı və onun quruluşu
25. Xarici ticarət və milli gəlir arasındakı əlaqə
26. Valyuta siyasəti və valyuta rejimi
27. Pul aqreqatları və likvidlik
28. Pul multiplikatoru
29. Pul tələbi və ona təsir edən amillər
30. Pulun miqdar nəzəriyyəsi, Fişer və Kembric tənliyi. Likvidlik tələsi
31. Müasir bank sistemi: Mərkəzi Bank və kommersiya bankları
32. Mərkəzi Bankın pul-kredit (monetar) siyasəti, onun məqsədləri və alətləri
33. Əmtəə bazarında tarazlıq və IS əyrisi
34. Toplam tələb əyrisinin sürüşməsi və meylliliyinin dəyişməsi
35. Ümumi makroiqtisadi tarazlıq

Hər bir bilet 5 sualdan ibarətdir. Bilet üzrə 4 (dörd) nəzəri və 1 (bir) praktik (tədris olunan mövzulara aid) sual nəzərdə tutulur.

"Makroiqtisadiyyat" fənninin sillabusu "6008008-Turizm işinin təşkili" ixtisası üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.

Sillabus "İqtisadiyyat və innovativ idarəetmə" kafedrasında müzakirə edilərək təsdiq edilmişdir. (22 dekabr 2025-ci il, protokol №4).


Kafedra müdiri v.i.e: dos. G.T.Əliyeva

Fənn müəllimi: b/m. L.Ə.Şahbazova


CamScanner ilə skan edilib